

*Nizaməddin ŞƏMSİZADƏ*

# REGİON POEZİYASI

(əvvəli ötən saylarımızda)

**Oxucusu olmayan şeir (və hər bir sənət əsəri!) ölü doğulmuş uşağa bənzəyir. Ədəbiyyatın inkişaf etməsi, səmərəli ədəbi mühitin yaranması, şeirin öz poetik və estetik vəzifəsini yerinə yetirməsi üçün istedadlı şairlərlə bərabər, istedadlı oxucular da lazımdır. Oxucunu sənət özü yetişdirməli, şeir öz bədii-fəlsəfi tapıntıları, cazibəsi ilə oxucunu heyrətdə qoymalıdır. Bəs görəsən bizim region poeziyası bu ümdə vəzifəsini yerinə yetirə bilirmi?! Bu suala birmənalı cavab vermək çətindir. Hələlik bunu deyə bilərəm ki, bizim region poeziyası ənənəvi şeir ölçülərindən kənara çıxa bilmir, bizim region şairləri bədii təfəkkür baxımından xeyli dərəcədə bir-birinə bənzəyirlər. Gileyli Bəylərin qoşmaları bu janrın uğurlu nümunələridir. Ümumən onun qoşma və gəraylıya üz tutması müəyyən rəğbət doğurur.**

*Sevən sevdiyinə min nəğmə qoşdu,*
*Gözəlin nazı da, zülmü də xoşdu.*
*Sevgisiz bir insan qanadsız quşdu,*
*Sevgisiz həyatda yaşamaq olmaz.*

Yeri gəlmişkən region poeziyasının bir qusurunu, daha doğrusu çatışmayan, əslində ona zərər verən cəhəti də demək istəyirəm: bu poeziya şeirin ən gözəl, əbədi və əzəli bədii-fəlsəfi mövzusuna - Eşq, məhəbbət və sevgi mövzusuna, elə bil ki, bir qədər laqeyddir. Mənim ustadım, akademik Məmməd Cəfər "Füzuli düşünür" monoqrafiyasında yazıb: "Füzuli sevir - Füzuli düşünür deməkdir" . Bütün xalqların, xüsusən Şərq - Azərbaycan klassik poeziyasında Eşq, Məhəbbət, Sevgi ən fəlsəfi - idraki və ondan da artıq Qəlb mövzusudur. Təsadüfi deyil ki, Füzuli ədəbiyyat tarixinə "qəlb şairi" (EJ-Bertels) kimi daxil olub. Mən, təxminən 15 region şairinin yaradıcılığını nəzərdən keçirdim, fəqət bir dənə də qəlbini titrədən məhəbbət şeirinə rast gəlmədim. Bu nədir, qəlbimiz donub, buz bağlayıb, bu bədii-fəlsəfi laqeydliyin səbəbi yaşayışımızın (iqtisadi-mənəvi!) çətinliyidir?!

Bu məsələ məni izafı dərəcədə düşündürdü, belə nəticəyə gəlirəm ki, deyəsən insanlar içəridən çürüyür, ümidsizlik mənəvi dünyamızı qapsayıb, bunun isə səbəbi sivil dünyaya çıxa bilməməyimiz, fanatizm, insanların etibarını zədələyən korrupsiya və rüşvət, ən başlıcası, tayfa bazlıqdır...

Gileyli Bəylərin yaradıcılığının əhəmiyyəti bundadır ki, o, bizdə bu mülahizələri yaratdı, belə bir fikri istiqamətə yönəltdi. Şair qoşmalarının birində belə bir mənalı təzad yaradır:

*Ocaq yaxşı şeydir, qışın qarında*
*Heç kəsin taleyi oda düşməsin.*

Şair dünyanı gərdişi qarşısında heyrət hissi keçirir, fəqət bu etibarsız, fani dünyanın ən gözəl bəzəyi insan əməli olduğuna əminlik ifadə edir:

*Kömək istəsələr əl uzat, hay ver*
*Ağ olan kəslərə çörək ver, çay ver.*
*Zirvəndə qar olsa, xəstəyə pay ver,*
*Zirvəyə güvənmə, qarı verən var.*

Yüksək humanizm, "təbiətin tacı, yaranmışlar əşrəfi" (Nizami Gəncəvi) olan İnsana ehtiram Gileyli Bəylərin şeirlərinin əsas leytmotivini təşkil edir.

Gileyli Bəylərin zəngin yaradıcılığı konseptual, monoqrafık tədqiqata möhtacdır. Ən əsası odur ki, o, poeziya, şeir yaradıcılığı ilə ürəkdən, bütün varlığı ilə ciddi niyyətlə məşğul olur, bu yolla millətinə xidmət edir.

Yüksək vətənpərvərlik ruhu, vətəndaş amalı Gəray Bayramın şeirlərinin həm mövzusunu, həm də bədii pafosunu təşkil edir. Mənə təqdim etdiyi "Azərbaycan - hər ovucu bir vətən" (2021) şeirlər toplusunun annotasiyasından öyrənirik ki, bu onun dördüncü şeir kitabıdır. Gəray Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Yeni Samux" qəzetinin əməkdaşı, Samux Ağsaqqallar Şurasının sədridir. Hazırda təqaüddə olan müəllimdir. Və ən əsası İlahinin ona bəxş ertdiyi istedadın nazını çəkən, istedad əzabına dözməyi bacaran şairdir. Bu yola düşən, könlü-nü şeirə, sənətə bağlayan adamlar Allaha yaxın olan kimsələrdir. Onun şeirləri bir ovuc, vətən yükümlüdür:

*Vətən mənim közüm, odum*
*Daş tarixə düşüb adım.*
*Yenilməyən dövlət qurdum*
*Qəhrəmanlar qalasıyam.*

Gəray "yenilməyən dövlətin" - Müzəffər Azərbaycanın şairi, vətəndaşı, oğludur. Bu misralar indi daha müasir səslənir. Etiraf edək ki, müqəddəs Vətən mövzusu həm də bəzi şairlərə konyunktur, basmaqəlib nəzm yazmağa imkan verib, istedadsızlar və ortabablar bu populyar mövzu arxasında gizlənib. Fəqət, Gərayın -Vətəni hər kəsə bənzəmir:

*Ürəyim döyünməz sənsiz bircə an*
*Sənsən bu dünyada məni yaşadan.*
*Əsirgəməm səndən istəsən bir can*
*Başım gərək olsa qoyaram Vətən!*

Bu misralar səmimi və inandırıcıdır. Gəray Kəlbəcər, əsir düşmüş, nalə çəkərək yurd həsrətlisi idi:

*İllərdi Kəlbəcər həsrətindəyəm*
*Öz mətin sözümü deyəmmir, qardaş.*
*Həsrət tarlasına vüsal səpirəm*
*Bitib göyərmir ki, göyərmir, qardaş.*

Bu bəndin son iki misrasi orijinaldır, heç kim, vətən həsrətini, yurd həsrətini belə tərənnüm etməyib: "Həsrət tarlasına vüsal səpirəm" - bu əsl şair deyimidir. Həsrətlə bağlı daha bir deyim:

*O həsrət tüstüsü acı göz yaşı,*
*Axıb yanağımdan izi qalıbdı.*
*Elə yandırıb ki, qəlbimin başı*
*Sinəmin üstündə gözü qalıbdı.*

Sinəm üstündə köz bağlamış həsrət - torpağı işğal olunmuş, vətəni taleyin amansız zərbələrindən infarkt keçirmiş ürək kimi param-parça olmuş vətən oğlu bəs necə yaza bilər?! Ağsaqqallar gənc nəslə "dünya yaman qarışıb" deyirlər. Şair bu deyimi konkret bir insanm, lirik qəhrəmanın üzərinə köçürür, daha doğrusu, qəhrəmanın üzərində toplayır:

*Qəmdən saralmışam, pozulub halım*
*Arzum pərən-pərən, duyğular zalım*
*Ətrini mən hansı çiçəkdən alım?*
*Güllərin ətri də qarışıb sənsiz.*

Güllərin ətri də qarışıb sənsiz - həsrətin bu üzünü də filosof, şair Gəray Bayram görə bilib. Sənsizlik həsrəti "Sən getdin // elə bil // dünya boşaldı" - həsrətin bu üzünü də şair Bəxtiyar Vahabzadə görüb. Gəray Bayram Qarabağ mövzusunda bir sıra şeirlər yazıb: "Yadıma düşdü", "Xocalı yanğısı", "Xocalı", "Azərbaycan əsgəri", " Şuşamda" və s. bu qəbildəndir.

*Bir gecədə yoxa çıxdı bir şəhər*
*Nizələndi yaşlılar və körpələr. __*
*Görməmişdi tarix belə vəhşilər*
*Susamışlar al qanına, Xocalı.*

"Azərbaycan ordusu", "Xarı bülbül", "Ali Baş Komandanım" İkinci Qarabağ savaşına - 44 günlük Vətən müharibəsinin qəhrəmanlarına həsr olunmuş şeirlər nisbətən uğurlu nümunələrdir.

Gərayın bəzi şeirləri uzundur, hekayə təəssüratı yaradır, şeirin nəsirdən fərqi budur ki, şeir tərənnüm, nəsr təsvir edir: əslində şeir nəsr işini bitirdiyi yerdən başlanır, şeirdə təsvir, təfərrüat qüsurdur. "Ali Baş Komandan" hərəsi 5 misradan ibarət bənddi. "Azərbaycan ordusu" 15 bənddi. "Bir can içrə iki qəlbik" 12 bənd, "Xocalı yanğısı biri 8, digəri 9 misra olmaqla 13 bənd, "Naxçıvan" hərəsi 5 misradan ibarət 7 bənddir. Bunlar yorucu şeirlərdi.

İkinci Qarabağ savaşı bizə tarixi zəfər və qürur, həm də kədər bəxş etdi, üç min şəhid verdik, iki o qədər də qazilər ordusu yarandı. Bu da təbiidir, müharibə həm öldürmək, həm də ölməkdir.

Son illər poeziyamız qələbə sevincləri ilə bərabər şəhid kədərini və qürurunu da tərənnüm edir. Gəray Bayram da bu mövzuya öz poetik töhvəsini verib: "Şəhidlər", "Samux şəhidləri", "Ata yolunu gözləyən uşaq" bu qəbildəndir:

*Güllə səslərindən diksinir hər an*
*Çırpınlır köksündə ürəyi quştək.*
*Tez-tez xəbər alır o anasından:*
*- Anacan, bəs atam nə vaxt gələcək?*
*Atanın yolunu gözləyən uşaq.*

Atasını gözləyən uşaq atasını üçrəngli bayrağa bükülmüş şəhid kimi qarşılayır.

*Görüb bu dünyanın haqsızlığını,*
*Canını verməklə haqqını aldı.*
*Görüb düşmənlərin qansızlığını*
*Qan töküb hamının haqqını aldı.*

*("Şəhidlər")*

Gəray Bayramın "Azərbaycan - hər ovucu bir vətən" şeirlər kitabı "Vətən daşı olmayandan // Olmaz ölkə vətəndaşı" (M.Araz); "Məhəbbət ilhama çağırır məni" (S.Vurğun); "Bir olsa dostların işi, əməli // Daşdan su çıxarar onların əli" (Nizami Gəncəvi) kimi fəsillərdən, 20 yanvar şəhidlərinə həsr olunmuş."Qəhrəmanlar ağlamasın" adlı lirik-fəlsəfi poemadan ibarətdir.-Adlarından da göründüyü kimi I fəsil poeziyamızın əbədi Vətən mövzusuna; II fəsil Eşq, Məhəbbət mövzusuna; III fəsil Milli birlik və dostluğa həsr olunmuş şeirlər çələngidir. "Məhəbbət ilhama çağırır məni" bölməsində ana və ata məhəbbətindən ("Ana", "Ana sevgisi", "Ay atam, anam" şeirləri) ənənəvi tərzdə bəhs olunur. .Əlbəttə, bu mövzularda təzə söz demək çətindir. Bəs sevgi şeirlərində necə? Axı eşq, sevgi haqqında da çox yazılıb...

Həyat yoldaşımın əziz xatirəsinə həsr olunmuş "Sənsiz"şeirində həsrət və məhəbbət, unudulmazlıq ifadə olunub:

*Sənsiz nə evim var, nə də çölüm var*
*Yuxusuz hecəm də darıxıb sənsiz.*
*Saata baxıram, vaxt da dayanıb*
*Əqrəblər dolaşıb, karıxıb sənsiz.*

Göründüyü kimi bu şeirdə kədərli bir romantika, həyat yoldaşına səmimi bir sevgi etirafı var. Özü də bu etiraf poetik baxımdan yenidir: Yuxusuz gecəm də darıxıb sənsiz, saata baxıram, saat da dayanıb, çünki əqrəblər dolaşıb, karıxıb sənsiz. Dolaşan, karıxan şairin özüdür, o həyatda özünə yer tapa bilmir.

"Unuda bilmirəm sənli günləri // Büküb həsrətinə əzizləyirəm" - bu deyim yenidir, poetik baxımdan kamildir. İkinci misrada sənli günlər bələyə bükülmüş körpə kimi simvollaşdırılır.

*Unuda bilmirəm sənli günləri*
*Hər gün göz yaşımla şəklin çəkirəm,*
*Canlı bir kitabdır xatirələrin*
*Hər gün o kitabı vərəqləyirəm.*

Sevimli xatununa bu həsrət şairin ürək durumundan nurlu bir soraq verir: həsrət kitabını hər adam oxuya bilmir.

Payız haqqında çox yazılıb, nəğmələr qoşulub. Gəray Bayram təbiətin solub-saralan çağını, qızılı payızı xınalı gəlinə bənzədir.

Onu ən qiymətli duyğusu -həsrətlə birləşdirərək kədərli romantik bir lövhə yaradır:

*Təbiət elə doyub güllərdən*
*Düşüb ağacların saçlarına dən*
*Mənim ürəyimi həsrətdi didən*
*Görəsən payızın xəbəri varmı?*

"Payız xına yaxır gülümsəyərək // Çöllləri bəzəyir təzə gəlin tək", " Külək ağacların saçını yolur // Güllərin yarpağı, ləçəyi solur", "Burnuma toyların qoxusu gəlir", "Durnalar köç edir, qəlbim kövrəlir" metafora, təşbih və deyimlərdən tutulmuş romantik misralar "Görəsən, payızın xəbəri varmı?" şeirindəndir. Gəray Bayram "Daha" şeirində "Həsrətin qəlbimi elə əridib // Süzülüb gözümdən o, gilə-gilə" kimi uğurlu bir beyt yaradır, onu həyata həsrətə təslim etmiş xanımına: "Yenə də qayğımı çəkirsən, demək // Mən sənin həsrətin çəkdiyim kimi".

Həsrətdən əriyib göz yaşı kimi axan ürək, qayğı çəkməklə həsrət çəkməyin arasında təzad uğurlu poetik deyimlərdir.

Həsrət - ən ali insan duyğusu, kədər nəfəsi kimi Gəray Bayramın şeirlərində metaforik obraza çevrilir və onun şairliyindən xəbər verir.

"Qaçır qar üstündə ayağyalın // O gənclik həsrətim sənin dalınca" - misraları qarlı havada dəcəllik edən və bu dəcəlliklərdə bir-birinə sevgi dadızdıran uşaqlara bənzəyir.

Bax, beləcə Gəray Bayramın məhəbbət şeirlərinə poetik şərh verib poetik uğurları aşkara çıxarmaq olar. Onun bədii təfəkkürü, təxəyyülü həssas müşahidələr müstəvisində təzahür edir.



Ədalət.- 11 iyun.- S.6.